# ***Q Ə R A R***

**İŞ№ 1(103)-330/2010**

Bakı Apellyasiya Məhkəməsinin cinayət və inzibati xətalara dair işlər üzrə kollegiyası
Hakimlər Abid Kamil oğlu Abdinbəyovun sədrliyi və məruzəsilə,
Rizvan Kamal oğlu Səfərov və Qail Fazil oğlu Məmmədovdan ibarət tərkibdə
Zaur Müzəffər oğlu Tağıyevin katibliyi ilə
Dövlət ittihamçısı Valeh Vəliəhəd oğlu Səmədovun
Müdafiəçi Məmmədov Azər Oruc oğlunun
Məhkum Qasımov Namiq Taryel oğlunun iştirakı ilə

**29 aprel 2010-cu ildə** **Bakı şəhərində**

01 avqust 1983-cü ildə Goranboy rayonunda anadan olmuş, Azərbaycan Respublikası vətəndaşı, əvvəllər məhkum olunmamış, subay, orta təhsilli, işləməyən, Goranboy rayonu, Şəfibəyli kəndində yaşamış **Qasımov Namiq Taryel oğlu** haqqındakı

Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası məhkəməsinin 04 mart 2010-cu il tarixli hökmündən məhkumun müdafiəçisinin verdiyi apellyasiya şikayətinə açıq məhkəmə iclasında baxaraq

## ***MÜƏYYƏN ETDİ :***

**Qasımov Namiq Taryel oğlu** Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası məhkəməsinin (Hakim T.X.Nəsrullayevanın sədrliyi və hakimlər R.A.Allahverdiyeva və N.a.Kərimovdan ibarət tərkibdə) 04 mart 2010-cu il tarixli hökmü ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.1 və 234.4.3 maddəsi ilə təqsirli bilinib 9 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına, Azərbaycan Respublikası Cinayət məcəlləsinin 206.3.2-ci maddəsi ilə təqsirli bilinib 5 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş, ona cinayətlərinin məcmusu qaydasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.3-cü maddəsinə əsasən təyin olunmuş cəzaları qismən toplamaq yolu ilə qəti olaraq 10 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilmişdir.

Birinci instansiya məhkəməsi məhkum Namiq Qasımov haqqında ittiham hökmünü çıxararkən belə nəticəyə gəlmişdir ki, o, qabaqjadan əlbir olan bir qrup şəxs tərəfindən satış məqsədi ilə qanunsuz olaraq külli miqdarda narkotik vasitə olan heroin əldə edərək Azərbayjan Respublikasının gömrük sərhəddindən gömrük nəzarətindən gizli keçirilməsinə nail olmaqla saxlamış və daşımışdır.

Belə ki, Qasımov Namiq Taryel oğlu 10 sentyabr 2009-ju il tarixdən 21 sentyabr 2009-ju il tarixədək İran İslam Respublikasında olarkən, şəxsiyyəti istintaqla müəyyən edilməsi mümkün olmayan «Əli» adlı şəxs və digər şəxslərlə qabaqjadan əlbir olub jinayət əlaqəsinə girərək, qaçaqmalçılıq yolu ilə Azərbayjan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən gizli keçirməklə satış məqsədi ilə qanunsuz olaraq külli miqdarda narkotik vasitələrin əldə edilməsi,

daşınması və saxlanılması barədə sövdələşərək Bakı şəhərinə qayıtdıqdan sonra, 14 oktyabr 2009-ju il tarixdə İran İslam Respublikasından «Əli» adlı şəxs ona zəng edərək satış məqsədilə qanunsuz olaraq əldə etdikləri külli miqdarda, ümumi çəkisi 1 kq 510 qram narkotik vasitə olan heroini «Reno» markalı THR-69670 dövlət nömrə nişanlı sərnişin avtobusu ilə şüşə masanın içərisində göndərdiyini bildirmiş və avtobusu idarə edən sürüjünün telefon nömrəsini ona vermişdir. N.Qasımov 14 oktyabr 2009-ju il tarixdə saat 15 radələrində Astara Gömrük İdarəsinin Sərnişin–Nəqliyyat şöbəsində qaçaqmalçılıq yolu ilə, Azərbayjan Republikasının gömrük sərhədindən gömrük nəzarətindən gizli keçirilmiş şüşə masanın içərisində olan narkotik vasitəni 15 oktyabr 2009-ju il tarixdə Bakı şəhəri, Xətai rayonu, Babək prospektində «İran qaracı» adlanan ərazidə satış məqsədilə qanunsuz olaraq əldə edərkən gömrük əməkdaşları tərəfindən yaxalanmışdır.

Məhkəmənin hökmündən məhkumun müdafiəçisi apellyasiya şikayəti vermişdir. Müdafiəçi apellyasiya şikayətində məhkəmənin hökmü ilə məhkuma təyin olunmuş cəzanı ağır hesab edərək göstərir ki, məhkəmə N.Qasımova cəza təyin edərkən onun müsbət xarakterizə olunmasını, ilk dəfə cinayət törətməsini, peşimançılığını hökmdə cəzanı yüngülləşdirən hal kimi nəzərə alsa da son nəticədə ağır cəza təyin etmişdir.. Apellyasiya şikayətində hökmün dəyişdirilərək məhkumun cəzasının yüngülləşdirilməsi məhkəmə kollegiyasından xahiş edilir.

Məhkəmə kollegiyası apellyasiya şikayətinin dəlillərini cinayət işinin materialları ilə əlaqəli surətdə araşdırıb, apellyasiya şikayətinin təmin olunması haqqında müdafiəçinin və məhkumun, apellyasiya şikayətinin təmin olunmadan və hökmün dəyişdirilmədən saxlanılması haqqında dövlət ittihamçısının çıxışlarını dinləyərək hesab edir ki, apellyasiya şikayəti əsassız olduğundan təmin edilməyərək, hökm dəyişdirilmədən saxlanılmalıdır.

Cinayət işindən görünür ki, məhkum N.Qasımov ittiham olunduğu cinayət əməlində özünü təqsirli bilmiş, onun törətdiyi cinayət əməli 1-ci instansiya məhkəməsində işə baxılarkən özünün etirafedici ifadəsi ilə yanaşı, məhkəmə iclasında dindirilmiş şahidlərin ifadələri ilə, ekspertiza rəyləri və digər iş materialları ilə tamamilə sübuta yetirilmişdir.

Yuxarıda sadalanan və cinayət işində olan sübutlara əsasən məhkəmə kollegiyası qeyd edir ki, Namiq Qasımovun göstərilən cinayəti törətməsinin sübuta yetirilməsi və cinayət əməlinin hüquqi tövsifi barədə birinci instansiya məhkəməsinin gəldiyi nəticə iş materiallarına uyğundur və əsaslıdır. Məhkumun əməli Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.1 234.4.3 və 206.3.2-ci maddələri ilə düzgün olaraq tövsüf olunmuşdur.

Məhkəmə kollegiyası həmçinin məhkuma təyin edilmiş cəzanı onun cinayətinin xarakterinə, ictimai təhlükəlilik dərəcəsinə və şəxsiyyətinə uyğun hesab edir. Belə Ki, hökmlə məhkuma cəza təyin edilərkən cəza təyin etmənin ümumi prinsiplərinə riayət edilməklə ona təqsirli bilindiyi maddələrin sanksiyası həddində, cinayətlərinin məcmusu qaydasında ədalətli cəza təyin edilmişdir.

Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikası CPM-nin 398.1.1-ci maddəsini rəhbər tutaraq

***QƏRARA ALIR:***

Apellyasiya şikayəti təmin olunmasın.

Qasımov Namiq Taryel oğlu haqqındakı Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası məhkəməsinin 04 mart 2010-cu il tarixli hökmü dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul olunduğu andan qüvvəyə minir.

Qərardan Azərbaycan Respublikası  Ali Məhkəməsinin Cinayət işləri üzrə məhkəmə kollegiyasına kassasiya şikayəti və protesti verilə bilər.